# Şirvan: böyüyən, abadlaşan, yaşıllığa bürünən şəhər

Ölkə paytaxtından Şirvana yolu düşən hər kəsi şəhərin giriş hissəsində ilkin olaraq “yaşıl tunel” qarşılayır. Yolçu şam, sərv, küknar ağaclarının “müşayiəti” ilə, son dərəcə xoş ovqatla, müsbət təəssüratla şəhərə daxil olur. Yaşıllıq təkcə giriş hissədə deyil. Yayı isti keçən aran şəhərində yaşıllığın artırılması, qorunması burada yaşayanlar üçün əsl vətəndaşlıq borcu hesab olunur.



Artıq illərdir ki, Şirvanda hamı tərəfindən həm qəbul, həm də təqdir olunan ənənə - hər şənbə elliklə iməciliyə çıxmaq kimi gözəl ənənə yaranmışdır. İməcilikdə şəhər sakinləri özərinə çoxdan bəlli olan sahələrdə təmizlik, antisanitariya işləri görür, ağaclara aqrotexniki qulluq göstərirlər.

Şəhərdə yaşıllıq işləri abadlıq-quruculuq işləri ilə paralel aparılır. İndi Şirvanda ən ucqar hesab olunan küçələrdə afalt işi görülmüş, park və meydançalarda səkilərə, gediş-gəliş yerlərinə tamet döşənmiş, binaların fasad hissəsinə gözoxşayan rəngdə suvaq çəkilmişdir. Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ayrılan vəsait hesabına yaşayış binalarının əksəriyyətinin dam örtüyü dəyişdirilmişdir.

Ölkədə aparılan geniş abadlıq-quruculuq tədbirləri Şirvanda öz geniş təcəssümünü tapmışdır. Xüsusi razılıq hissi ilə deməliyik ki, dövlət başçımız cənab İlham Əliyevin qayğı və diqqəti sayəsində son illər şəhərdə həyat əhəmiyyətli idman, səhiyyə, mədəniyyət müəssisələri tikilib istifadəyə verilmişdir. Ətraf rayonlar üçün mərkəz rolunu oynayan Şirvanda rayonlararası idarələr fəaliyyət göstərir. Ərazi Vergilər İdarəsi, İmtahan-Qeydiyyat İdarəsi, Ekologiya İdarəsi, İnzibati-İqtisadi Məhkəmə, Diaqnostika Mərkəzi, Respublika Gömrük İdarəsinin şəhər şöbəsinə vətəndaşlar müraciət edir. Şəhərə gələn qonaqlar buradakı xidmətdən razılıq etməklə yanaşı, şəhərin görkəmi barədə də xoş təəssürata malik olurlar.

Əhalinin məişət şəraitinin yaxşılaşdırılması diqqət mərkəzindədir. Artıq neçə illərdir ki, qaz, işıq problemi aradan qaldırılmışdır. Sakinlər Talış Su Kəmərindən gələn ekoloji cəhətdən təmiz içməli su ilə təmin olunurlar.

Şəhərdə idmana, bədən tərbiyəsinin inkişafına xüsusi diqqət yetirilir. Bir neçə il bundan əvvəl dövlət başçımız tərəfindən qırmızı lenti kəsilən Olimpiya İdman Kompleksi gənclərin ən çox sevdikləri idman mərkəzinə çevrilmişdir. Kompleksin ayrı-ayrı bölmələrində, üzgüçülük hovuzunda, yaşıl meydançasında məktəbli yeniyetmələr, gənclər idmanın müxtəlif növləri ilə məşğul olurlar. Kompleksdə fəaliyyət göstərən mehmanxana Avropa standartlarına cavab verir. Bu yaxınlarda istifadəyə verilən Gənclər evi gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsində, onların elmi-bədii intellektinin, dünyagörüşünün formalaşmasında mərkəz rolunu oynayacaqdır.



Şirvanda təmizliyin, sanitariya qaydalarının gözlənilməsini hamı özünün vətəndaşlıq borcu hesab edir. Şəhərdə artıq neçə illərdir ki, “Abad məhəllə” hərəkatı başlamışdır. Bu məhəllələrdə mərasim evləri, azyaşlılar üçün əyləncə meydançaları salınır, yaşıllıq-abadlıq işləri görülür.

Şirvan şəhəri yaşayıb-yaratmaq, quruçuluq işlərində fəal iştirak etmək üçün hərtərəfli rahat və əlverişli yaşayış məkanıdır.

**Tofiq HÜSEYN,**
**“Respublika”.**





